# Azərbaycan Respublikasının Dövlət rəmzləri, tarixi günləri və bayramları

*****

Azərbaycan-Türkiyə Özəl Liseyləri
baş idarəsinin metodiki şurası
tərəfindən toplanmışdır

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
İŞLƏR İDARƏSİNİN
KİTABXANASI





## Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev cənablarının Vətənə, Dövlətə, Xalqa sədaqət andı:

"Əlimi Azərbaycan Resublikasının Konstitusiyasına basaraq and içirəm ki, biliyimi, təcrübəmi, qüvvəmi Azərbaycan xalqının, Azərbaycan Respublikasının rifahına həsr edəcəyəm.

And içirəm ki, prezident vəzifəsini ali məqsədlər, amallar naminə yerinə yetirəcək, Azərbaycan Respublikasının tam müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü təmin etmək üçün əlimdən gələni əsirgəməyəcəyəm.

And içirəm ki, Azərbaycan Respublikası Konstitusiyası və qanunlarının həyata keçirilməsinin təminatçısı olacaq, milli mənsubiyyətdən asılı olmayaraq Azərbaycan vətəndaşlarının hüquqlarının və azadlıqlarının qorunmasının, müdafiə edilməsinin təminatçısı olacağam. Azərbaycan Respublikasında azadlığın, demokratik dəyişikliklərin, Azərbaycan Respublikasının demokratik hüquqi dövlət kimi inkişaf etdirilməsinin təminatçısı olacağam. Azərbaycan Respublikasına, Azərbaycan xalqına ləyaqətlə xidmət edəcəyəm. Azərbaycan Respublikasının dünya dövlətləri içərisində, dünya birliyində ləyaqətli yer tutmasına çalışacağam.

Əlimi Qurani Kərimə basaraq and içirəm ki, Azərbaycan xalqının milli və mənəvi ənənlərinə daim sadiq olacaq və bu ənənələrin Azərbaycanda bərqərar olmasına, yaşamasına təminat yaradacağam."

# AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYASI

Azərbaycan Respublikası Konstitusiyası Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin sədrliyi ilə Azərbaycan Respublikasının yeni Konstitusiya layihəsini hazırlayan komissiya tərəfindən hazırlanmış, 1995-ci il noyabrın 12-də keçirilən Azərbaycan Respublikası referendumunda qəbul olunmuş və 1995-ci il noyabrın 27-dən qüvvəyə minmişdir.

Konstitusiya 12 fəsil, 158 maddə və 12 keçid maddədən ibarətdir.





## Azərbaycan Respublikasının Dövlət Rəmzləri

## DÖVLƏT BAYRAĞI



1. Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycan dövlətinin suverenliyinin rəmzidir.

2. Azərbaycan Respublikasının Dövlət bayrağı eni bərabər olan üç rəngli, üç üfiqi zolaqdan ibarət düzbucaqlı parça şəklindədir: üst zolaq mavi rəngdə, orta zolaq qırmızı rəngdə, aşağı zolaq yaşıl rəngdədir. Bayrağın hər iki üzündəki qırmızı zolağın ortasında ağ rəngli aypara və səkkiz guşəli ulduz təsviri vardır. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir (Milli Məclisin 05 fevral 1991-ci il, 17XIIN°-li qərarı). Bayrağımızda olan mavi rəng türkçülüyün; qırmızı rəng müasirlik və demokratiyanın; yaşıl rəng isə islamın simvoludur. Aypara və səkkiz guşəli ulduz isə xoşbəxtlik və səadət rəmzidir. Bütün bunlar konkret olaraq "Türk soylu, islam imanlı Azərbaycan çağdaş - müasir dünya ilə ayaqlaşsa, öz səadəti və xoşbəxtliyini tapar" anlamını verir.

## DÖVLƏT GERBİ



Azərbaycan Respublikasının Dövlət gerbi Azərbaycan dövlətinin müstəqillik rəmzi olub Milli Məclisin 19 yanvar 1993-cü il tarixli 460№-li qərarı ilə təsdiq edilib. Azərbaycan Respublikasının gerbi haqqındakı əsasnamədə (23 fevral 1993-cü il əmr №516) Dövlət gerbimiz belə təsvir olunur: "Azərbaycan Respublikasının Dövlət gerbi palıd yarpaqlarından və sünbüllərdən ibarət qövsün üzərində yerləşən Şərq qalxanının təsvirindən ibarətdir. Qalxanın üstündə Azərbaycan Respublikası Dövlət bayrağının rəngləri fonunda səkkiz guşəli ulduz, ulduzun mərkəzində alov təsviri vardır.

Azərbaycan Respublikası Dövlət gerbinin rəngli təsvirində ulduz ağ, alov qırmızı, palıd budaqları yaşıl, sünbüllər sarı rəngdədir. Qalxan və ulduzun sığınaqları, habelə qalxanın düymələri və palıd qozaları qızılıdır." Burada qalxan - birlik, müdafiə, müqavimət; ulduz - Vətənimizin cənnət məskəni





olmasını; alov - odlar yurdunun, palıd yarpaqları - uzun ömürlülüyün və möhkəmliyin, sünbül - bərəkət və bolluğun rəmzi kimi verilmişdir. Gerbdə də bayraqdakı ideyalar öz əksini tapmışdır. Azərbaycan xalqı özünə və bütün dünya xalqlarına əmin-amanlıq, firavanlıq, xoşbəxtlik və səadət arzulayır. Simvollar "müharibə istəmirik, lakin hər cür hücumdan da müdafiə olunmağa hazırıq" - fikrini verir.

## DÖVLƏT HİMNİ

Azərbaycan Respublikasının Dövlət himni Azərbaycan Dövlətinin, onun müstəqilliyinin və birliyinin müqəddəs rəmzidir. Musiqisi Üzeyir Hacıbəyovun, mətni Əhməd Cavadın olan "Azərbaycan marşı" Azərbaycan Respublikasının Dövlət himni kimi Milli Məclisin 27 may 1992-ci il 142№-li qərarı ilə təsdiq edilmişdir.

## Azərbaycan Respublikasının Dövlət himni

*Sözləri Əhməd Cavadın*
*Musiqisi Üzeyir Hacıbəyovundur.*

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Üçrəngli bayrağınla məsud yaşa!

Minlərlə can qurban oldu,
Sinən hərbə meydan oldu,
Hüququndan keçən əsgər
Hərə bir qəhrəman oldu.

Sən olasan gülüstan
Sənə hər an can qurban.
Sənə bir çox məhəbbət
Sinəmdə tutmuş məkan.

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Namusunu hifz etməyə
Cümlə gənclər müştaqdır.
Şanlı Vətən, Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!
Azərbaycan! Azərbaycan!





## Азербайджанский марш

Азербайджан, Азербайджан
О, колыбель святая славных сынов!
Нет земли милей Отчизны,
Нет ее родней.
От истока нашей жизни
До скончанья дней!

Под знаменем Свободы верши свой путь!
Тысячи нас, павших в бою,
Защищавших землю свою.
В час роковой вствнем стеной,
В нерушимом ратном строю!

Пусть цветут сады, твой!
Созидай, мечтай, твори!
Сердце, полное любви,
Посвятили мы тебе.

Славься, славься гордой судьбой,
Край наш древний, край наш святой.
Каждый сын твой движим мечтой,
Видеть мирный свет над тобой.
О светлый край, заветный край!
Азербайджан! Азербайджан!

## March of Azerbaijan

Azerbaijan, Azerbaijan!
You are the country of heroes!
We will die so that you might be alive!
We will shed our blood to defend you!
Long live your three-coloured bannes!
Thousands of people sacrificed their lives
You' ve become the field of battles.
Every soldier fighting for you,
Has become a hero.
We pray for your prosperity,
We make sacrifice our lives to you
Our sincere love to you
Comes from the bottom of our hearts.
To defend your honour,
To hoist your banner,
All the young people are ready.
Glorious motherland,
Azerbaijan, Azerbaijan!





# Azərbaycan Respublikasının Dövlət himni

*Sözləri Əhməd Cavadın*
*Musiqisi Üzeyir Hacıbəyovundur.*
*bərpa, transkripsiya və*
*aranjemanı Aydın Əzimovundur*











## BAYRAM GÜNLƏRİ

| | |
|---|---|
| Yeni il | 1 yanvar |
| Beynəlxalq Qadınlar günü | 8 mart |
| Novruz bayramı | 20-21 mart |
| Qələbə günü | 9 may |
| Respublika günü | 28 may |
| Milli Qurtuluş günü | 15 iyun |
| Silahlı Qüvvələr günü | 26 iyun |
| Milli Müstəqillik günü | 18 oktyabr |
| Konstitusiya günü | 12 noyabr |
| Milli Dirçəliş günü | 17 noyabr |
| Dünya azərbaycanlılarının həmrəyliyi günü | 31 dekabr |

## BAYRAMLAR HAQQINDA

### 1 yanvar - Yeni il

1582-ci il fevralın 24-də papa XIII Qriqorinin bullası ilə müəyyən olundu ki, 1582-ci il oktyabrın 5-dən sonra oktyabrın 15-i hesablanmalıdır. Yəni hesablama 10 gün irəli çəkildi. İslahatın qarşısına qoyduğu digər vəzifə, yəni 400 ildə təqvimdəki 3 gün sürüşməni aradan qaldırmaq idi. Yuli təqvimində 400 il ərzində 100 uzun il olmuşdur. Luici Lilo təklif etdi ki, uzun illərin sayını 100-dən 97-ə endirməklə üç günü ləğv etmək olar.





Yeni təqvim Yuli təqviminə nisbətən daha dəqiq idi. Bu təqvimdə il astronomik ildən yalnız 26 saniyə geri qalırdı. Bir günlük fərq isə 3280 il müddətində yaranırdı.

1700-cü ildə Qriqori təqvimini Almaniyanın protestant knyazları, Danimarka və Norveç, 1701-ci ildə isə İsveçrə rəsmi qəbul etdi. Bu təqvim 1752-ci ildə İngiltərə və İrlandiyada, bir il sonra İsveç və Finlandiyada, 1873-cü ildə Yaponiyada, 1911-ci ildə Çində, 1916-cı ildə Bolqarıstanda, 1918-ci ildə Sovet Rusiyasında, 1920-ci ildə Sovet Azərbaycanında, 1924-cü ildə Yunanıstanda, 1925-ci ildə İranda, bir il sonra isə Türkiyədə rəsmiləşdirildi.

### 8 mart - Beynəlxalq Qadınlar günü

XIX əsrin sonlarından başlayaraq Avropa ölkələrində qadınlar iqtisadi, ictimai-ciyasi bərabərlik uğrunda mübarizəyə başlamışdılar. Qadın hərəkatı əsasən Fransada geniş şəkildə yayılmışdır. Qadınların öz azadlıqlarını tələb etməsi 1910-cu ildə Sosialist Qadınlarının II Beynəlxalq qurultayında bayram edilməsi qərara alınmışdır. Bu təklifin müəllifi sosialist inqilabçı Klara Setkin idi. 8 martın "Qadınlar günü" kimi qeyd edilməsi 1911-ci ildən başlayaraq Almaniya, Avstriya və Danimarkada qeyd edilmiş, 1913-cü ildə Rusiyada, 1917-ci ildə Azərbaycanda qeyd edilmişdir.

## 20-21 mart -"Novruz" bayramı

Bu bayramın tarixi çox qədimdir. Hələ 12 min il bundan əvvəl yeni il şənliyi xatırlanır, hörmətlə yad edilirdi. Lakin bu bayram indi bizdə "Novruz" bayramı adı ilə məşhurdur.

Ulularımız "Yeni il", "Təzə il" anlayışında kainatın dövr etməsini, hərəkətini və bu dövretməni də dəqiq hesablayıb, nəzərə alıblar: "Novruz"a, təzə ilə keçid günü gecə ilə gündüz bərabərləşir, yəni təzə ildən uzana-uzana gələn günlər, dekabrdan qısalmağa başlayır, martın 21-də bərabər olur və il yenidən təzələnir.

Səməni göyərtmək Novruzun ən müqəddəs mərasimidir. Səməni həm yaşıllığın, həm də əkinçiliyin rəmzidir. Səməninin varlığı da, həyat verəni də, mənası da taxıldır. Əkinçilərimiz səməni göyərtməklə növbəti təsərrüfat ilinə bolluq, bərəkət arzulamışlar.

Novruz bayramına qədər dörd çərşənbə olur:

- su çərşənbəsi - su oyanır;
- od çərşənbəsi - od oyanır;
- yel çərşənbəsi - əski etiqadlara görə, bu çərşənbədə oyanan külək ərazi gəzir, oyanmış suyu, odu hərəkətə gətirir, yatmış torpağı qızdırır;
- Yer çərşənbəsi - xalq arasında "ilaxır çərşənbə", "torpaq çərşənbəsi" kimi də tanınır. Axır çərşənbə adamlar yoxluq və qıtlıqdan, çətinlik və məhrumiyyətlərdən qurtarmaq üçün özündə daha böyük inam tapır. Axır çərşənbədə yeni əkiləcək





torpaq sahələrində və əkin yerlərində kütləvi şəkildə şənliklər keçirilərdi.

## 9 may - İkinci dünya müharibəsində alman-faşist işğalçıları üzərində Qələbə günü

1941-ci ildə Alman faşizmi keçmiş SSRİ üzərinə hücum etmiş, SSRİ-də yaşayan bütün xalqlar faşizmə qarşı mübarizəyə qalxmışlar. Bu mübarizədə ən çox Azərbaycan xalqı seçilmişdir. Cəbhəni ərzaqla və yanacaqla təmin etmək Azərbaycan zəhmətkeşlərinin üzərinə düşürdü.

SSRİ xalqlarının birgə mübarizəsi nəticəsində 9 may 1945-ci il tarixdə alman faşizmi təslim oldu.

## 28 may - Respublika günü

1918-ci il mayın 28-də Azərbaycan Milli Şurası Tiflis şəhərində Cənubi Qafqazda müstəqil dövlətin - Azərbaycan Xalq Cümhuriyyətinin yaradıldığını elan etdi. Bu dövlət bütün Şərqdə, bütün müsəlman və türk dünyasında ilk demokratik respublika - Xalq Cümhuriyyəti idi. 1918-1920-ci illərdə mövcud olmuş AXC xalqımıza istiqlalın və müstəqilliyin nə demək olduğunu bir daha göstərdi. Bu Cümhuriyyət Azərbaycanın 200 il əvvəl itirilmiş dövlətçiliyini bərpa etdi, xalqın dövlətçilik ənənələrindən uzaqlaşdırılmasına, yadırğadılmasına son qoydu. Azərbaycan ikinci dəfə müstəqillik qazandıqdan sonra 28 may

İŞLƏR İDARƏSİNİN
KİTABXANASI

Respublika günü kimi bayram edilir.

**15 iyun - Azərbaycan xalqının Milli Qurtuluş günü**

Xalqımızın milli bayramları arasında Milli Qurtuluş gününün ayrıca yeri var. Çünki bu gün, möhtərəm Prezidentimiz Heydər Əliyevin xalqın arzusu və tələbi ilə hakimiyyətə qayıdışı ilə əlamətdardır. 1991-1993-cü illərdə Azərbaycan Respublikası çox məhrumiyyətlərə düçar olmuşdu. Müstəqilliyimiz böyük təhlükə qarşısında idi. Ölkədə vətəndaş müharibəsi başlanmışdı. Müstəqilliyimizin bütün daxili və xarici düşmənləri vahid cəbhədə birləşmişdilər.

Müstəqilliyini təzəcə bərpa etmiş Azərbaycan Respublikası çox böyük çətinliklər içində idi. Azərbaycanın torpaqları erməni millətçiləri tərəfindən işğala məruz qalmışdı, daxildə demokratiya adı altında hər kəs öz bildiyini edirdi. Səriştəsiz və bacarıqsız AXC-Müsavat rəhbərliyinin məsuliyyətsizliyi üzündən hərc-mərclik baş alıb gedirdi. Xalq respublikanın bu ağır günündə ancaq xilaskar kimi Heydər Əliyevi görürdü. Bunu nəzərə alan Heydər Əliyev respublikaya rəhbərliyə ikinci dəfə gəlməsini qərarlaşdırdı.

Əsrin üçdə bir hissəsindən çox rəhbər vəzifədə çalışan Heydər Əliyev böyük dövlət təcrübəsi əsasında müstəqil dövlətin yaranması üçün 1990-cı ilin yanvarında Moskva şəhərində Bakıda sovet ordusunun törətdiyi 20 Yanvar qırğınına siyasi





qiymətin verilməsində, 1991-ci ilin ortalarıdna, Sovet dövlətinin dağılmasından əvvəl Naxçıvan Muxtar Respublikasında müstəqilliyin yaranmasında, ADR-ın atributlarının bərpasında Heydər Əliyevin adının, nüfuzunun, xidmətlərinin böyük rolu olmuşdur. Bəli, Heydər Əliyev müstəqilliyini bərpa etmiş Azərbaycana rəhbər vəzifəyə ikinci dəfə 1993-cü ilin yayında qayıtdı. Bu zaman Azərbaycanda Qarabağ problemi, iqtisadi problem, vətəndaş müharibəsi problemi və s. mövcud idi. Azərbaycanın Dövlət Müstəqilliyi sahəsində böyük işlər görülməyə başlandı. Az bir vaxtda Gəncədə vətəndaş müharibəsi və Lənkəranda separatçılıq hərəkətləri təhlükəsi, Bakıda, Gəncədə və Qazaxda dövlət çevrilişinə cəhdlər Heydər Əliyevin ciddi səyi nəticəsində xalqla birlikdə aradan qaldırıldı.

Azərbaycanın uzun illər dövlətçiliyinin olmadığını, əyalət ölkəsi olduğunu nəzərə alaraq ən başlıcası nizami ordunun, habeli qonşu Rusiya, Türkiyə, İran, Gürcüstan, Qazaxıstan, Özbəkistan, Türkmənistan və inkişaf etmiş Fransa, İngiltərə, ABŞ, Səudiyyə Ərəbistanı, Misir, Çin, Əfqanıstan, İtaliya kimi ölkələrlə diplomatik əlaqələr yaradılmasına nail oldu. Azərbaycan Respublikasını dünyada əhəmiyyətli dərəcədə tanıtdı və Azərbaycan dünya dövlətləri birliyinə daxil oldu.

BMT-nin XIX sessiyasında, Macarıstanın Budapeşt, Mərakeşin Kasablanka, Portuqaliyanın Lissabon, Fransanın Strasburq şəhərlərindəki zirvə

toplantısında dərin məzmunlu nitqlər söyləyərək Azərbaycan dövlətinin beynəlxalq aləmdə nüfuzunu artırmaqla yanaşı, Ermənistanın torpaqlarımızın 20 faizdən çoxunu işğal etməsini, bir milyondan artıq azərbaycanlının öz vətənində qaçqın olmasını dəqiq faktlarla diqqətə çatdırdı. Lissabon sammitində iştirakçı 54 dövlətdən 53 dövlətin dəstəyini aldı, düşmənin torpaqlarımızdan qeyri-şərtsiz çıxarılması tələbini irəli sürdü və s.

Prezidentimiz 1994-cü ilin may ayından atəşkəsə nail olunması, respublika iqtisadiyyatının yüksəldilməsi, manatın məzənnəsinin sabitləşməsi, respublikada, xüsusən onun paytaxtı Bakı şəhərində sabitliyin yaranması, respublikada yaşayan ayrı-ayrı millət və xalqlara hörmətlə yanaşılması, Xəzərin Azərbaycan sektorunda dünyanın aparıcı dövlətləri ilə əsrin neft müqavilələrinin bağlanması və s. məsələlərin həlli sahəsində yorulmadan fəaliyyət göstərmişdir. Bütün bunlar da müstəqil dövlətin möhkəmlənməsi yolunda görülən tarixi əhəmiyyətli hadisələrdir.

## 18 oktyabr - Milli Müstəqillik günü

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə 1920-ci il aprelin 28-də XI rus ordusunun işğalı nəticəsində itirilmiş Azərbaycan Cümhuriyyətinin dövlət müstəqilliyinin bərpa edilməsi barədə Konstitusiya Aktı qəbul edilmişdir.





"Azərbaycan Respublikasının dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı"ndan:

... 70 il ərzində Azərbaycan Respublikasına qarşı əslində müstəmləkəçilik siyasəti yeridilir, Azərbaycanın təbii ehtiyatları amansızcasına istismar olunur, milli sərvətlər çapılıb talanır, Azərbaycan xalqı təqiblərə və kütləvi cəza tədbirlərinə məruz qalırdı, onun milli ləyaqəti tapdalanırdı. Bütün bunlara baxmayaraq, Azərbaycan xalqı dövlət müstəqilliyi uğrunda mübarizəni davam etdirirdi.

"Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında" Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il avqustun 30-da qəbul etdiyi Bəyannamə də bu mübarizəni yekunu olmuşdur."

## 12 noyabr - Azərbaycan Respublikasının Konstitusiyası günü

Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında əks olunan prinsipləri əsas götürərək, bütün cəmiyyətin və hər kəsin firavanlığının təmin edilməsini arzulayaraq, ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar edilməsini istəyərək, keçmiş, indiki və gələcək nəsillər qarşısında öz məsuliyyətini anlayaraq, suveren hüququndan istifadə edərək, təntənəli surətdə aşağıdakı niyyətlərini bəyan edir:

- Azərbaycan dövlətinin müstməqilliyini, suverenliyini və ərazi bütövlüyünü bəyan edir;
- Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək;
- vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq;
- xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dölvət qurmaq;
- ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etmək;
- ümumbəşəri dəyərlərə sadiq qaydalara uyğun olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək.

Konstitusiyanın məktəbdə öyrədilməsi və təbliğinin imkanları çox genişdir. İndi əsas vəzifəmiz konstitusiyada qanunçuluqda təsbit olunmuş elmi bilikləri məktəblərdə, tələbə-gənclər və əhali arasında hərtərəfli izah etməkdən ibarətdir.

## 17 noyabr - Milli Dirçəliş günü

1988-ci ilin 17 noyabrında Azərbaycan xalqının imperiyaya qarşı hamılıqla ayağa qalxması, öz azadlıq səsini ucaltması azadlıq uğrunda dünyaya səs salan addımlarla irəliləməyimizə səbəb oldu. 17 noyabrdan dekabrın 5-dək davam edən əzəmətli xalq hərəkatı bütün dünyada bir daha sübut etdi ki, Azərbaycan xalqı öz müstəqilliyini və





azadlığını, ərazi bütövlüyünü hər şeydən əziz tutur və onu qoruyub saxlamağa qabildir.

## 31 dekabr - Dünya Azərbaycanlılarının həmrəyliyi günü

Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurasının 1991-ci il 25 dekabr tarixli qərarı ilə Respublikamızda hər il dekabrın 31-i "Dünya azərbaycanlılarının həmrəyliyi günü" kimi bayram edilir. Buna əsas 1989-cu il dekabrın 31-də Araz çayı boyu Sovet-İran sərhəd xəttinin əhali tərəfindən məhv edilməsi, xalqın Sovet rejiminə sonsuz qəzəbi və cənublu qardaşlarımızla birləşmək cəhdi olmuşdur.

## UNUTMA

1813–1828-ci ilə qədər Azərbaycan ərazisi təxminən 410 min kv.km. idi. 1813–1828-ci illərdə Azərbaycan əraziləri:

*İran əsarəti altındakı Cənubi Azərbaycan – sahəsi təxminən **280** min kv.km.*

*Rusiya əsarəti altındakı Şimali Azərbaycan – sahəsi təxminən **130** min kv.km.*

1918-ci ildə Rusiyanın təzyiqi ilə ermənilərə verilmiş İrəvan xanlığı – *sahəsi **9** min kv.km.*

Rusiya əsarəti altındakı Dərbənd xanlığı – *sahəsi **7** min kv.km.*

1918–1920-ci illərdə Azərbaycan Demokratik Respublikasının qurulduğu ərazinin – *sahəsi təxminən **114** min kv.km*

1920-ci ildə ADR-i işğal edən rus sovet imperiyasının bölüşdürdüyü Azərbaycan əraziləri:

Ermənistan Sovet Sosialist Respublikasının qismən nəzarətinə verilən Zəngəzur, Göyçə, Şərur, Dərələyəz, Dilican və gürcülərin qismən nəzarətinə verilən (Gürcüstan Sovet Sosialist Respublikası) Borçalı – *birlikdə sahəsi təxminan **27,4** min kv.km.*

1920–1991-ci illərdə SSRİ əsarəti altında qalmış Azərbaycan Sovet Sosialist Respublikasının ərazisi – *sahəsi **86,6** min kv.km.*

Bu tarixlər bizdə intiqal almaq, Vətən torpaqlarını murdar erməni tapdağından xilas





etmək üçün tarixi yaddaş olmalıdır.

**Azərbaycanın 1988–1994-cü illərdə işğal edilmiş əraziləri**

Keçmiş Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut): İşğal tarixi – 1988–1994-cü illər, sahəsi: 4400 kv.km.

Şərur rayonunun Kərki və Günnüt kəndləri (17 fevral 1990) – *19 kv.km.*

*Laçın* (17 may 1992-ci il) – ***1835** kv.km.*

*Kəlbəcər* (3-4 aprel 1993-cü il) – ***1936** kv.km.*

*Ağdam* (23 iyul 1993-cü il) – ***1094** kv.km.*

*Cəbrayıl* (18 avqust 1993-cü il) – ***1050** kv.km.*

*Füzuli* (23 avqust 1993-cü il) – ***1386** kv.km.*

*Qubadlı* (31 avqust 1993-cü il) – ***802** kv.km.*

*Zəngilan* (30 oktyabr 1993-cü il) – ***707** kv.km.*

Ermənistanda yaşamış azərbaycanlıların kütləvi şəkildə sonuncu deportasiya əməliyyatı 1988-ci ilin aprelində başlayıb. Ermənistanda yaşayan azərbaycanlılar öncə hissə-hissə, noyabrın sonu, dekabrın birinci ongünlüyündə isə kütləvi şəkildə deportasiyaya məruz qalıblar. Əməliyyat nəticəsində Ermənistan Respublikasının 8 min kvadrat kilometrlik ərazisində (172 yaşayış məntəqəsi) kompakt şəkildə yaşayan 200 mindən çox azərbaycanlı min illərlə yaşadığı torpaqlardan didərgin salınıb. Beləliklə, Azərbaycanın deyildiyi kimi 20%-i yox, təxminən 80% ərazisi işğal altındadır.

# AZƏRBAYCAN TARİXİNİN ƏSAS MƏQAMLARI

| | |
|---|---|
| *E.ə. 323-cü il* | Qədim Azərbaycan dövləti -Atropatena (Adərbayqan) dövləti yaranmışdır. |
| *E.ə. IV-III - y.e. VII əsr.* | Qafqaz Albaniyası dölvəti mövcud olmuşdur. |
| VII-IX əsrlər | Azərbaycan xalqının ana kitabı "Kitabi-Dədə Qorqud" dastanı yaramışdır. |
| 1027-ci il | Araz çayı üzərində Xudafərin körpüsü salınmışdır |
| 1259-cu il | Azərbaycanın ən qədim rəsədxanası - Marağa rəsədxanası inşa edilmişdir. |
| 1501-ci il | Şah İsmayıl Xətai tərəfindən mərkəzləşmiş Azərbaycan Səfəvilər dövlətinin əsası qoyulmuşdur |
| 1813-cü il 12 oktyabr | Azərbaycanın tarixində faciəvi rol oynayan Gülüstan müqaviləsi imzalanmışdır |
| 1828-ci il 12 oktyabr | Azərbaycan Rusiya ilə İran arasında bölüşdürülməsi haqqında bədnam Türkmənçay müqaviləsi imzalanmışdır. |





| | |
|---|---|
| 1875-ci il 22 iyun | Həsən bəy Zərdabinin redaktorluğu ilə ana dilimizdə ilk mətbu orqan - "Əkinçi" qəzetinin nəşrinə başlanmışdır. |
| 1918-ci il 31 mart | Azərbaycanlılara qarşı ermənilər tərəfindən soyqırımı faciəsi törədilmişdir. |
| 1918-ci il 28 may | Tiflisdə Azərbaycan Xalq Cümhuriyyəti elan edilmişdir. |
| 1918-ci il 26 iyun | Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən Əlağa Şıxlinskinin komandanlığı altında Əlahiddə Azərbaycan korpusu yaradılmşıdır. |
| 1918-ci il 27 iyun | Azərbaycan dili dövlət dili elan edilmişdir. |
| 1918-ci il 15 sentyabr | Bakı şəhəri Anadolu və Azərbaycan türklərindən ibarət Qafqaz-İslam ordusu tərəfindən ermənilərdən azad olunmuşdur. Bakı |

| | |
|---|---|
| | Azərbaycanın paytaxtı elan edilmişdir. |
| 1918-ci il 9 noyabr | Azərbaycan Xalq Cümhuriyyəti üçrəngli bayrağı qəbul edilmişdir. |
| 1918-ci il 7 dekabr | Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti fəaliyyətə başlamışdır. |
| 1919-cu il 15 noyabr | Bakı Dövlət Universiteti yaradılmışdır |
| 1920-ci il 11 yanvar | Azərbaycan müstəqilliyi Versal Konfransının Ali Şurasında tanındı |
| 1920-ci il 27-28 aprel | Sovet Rusiyasının XI Ordusu Azərbaycanı işğal edərək Milli hökuməti devirdi və Azərbaycanda Sovet hakimiyyətini elan etmişdir. |
| 1923-cü il 10 may | Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyev anadan olmuşdur. |
| 1924-cü il fevral | Naxçıvan MSSR yaradılmışdır. |
| 1945-ci il yanvar | Azərbaycan Respublikası Elmlər Akademiyası yaradılımşdır. |
| 1969-cu il 14 iyul | Heydər Əliyev Azərbaycan |





| | |
|---|---|
| | KP MK-nın I katibi seçilmişdir. |
| 1987-ci ilin noyabrı | Xankəndində Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi məqsədi güdən bədnam erməni separatçıları baş qaldırmışlar. |
| 1988-ci ilin fevral ayından | Ermənistanın Azərbaycana təcavüzü Azərbaycan tor paqlarının qəsbkar erməni silahlı qüvvələri tərəfindən işğalına başlanılmışdır. |
| 1988-ci il 17 noyabr | Azərbaycanda milli azadlıq hərəkatı başlanmışdır. |
| 1988-ci il dekabr | Qərbi Azərbaycan torpaqlarından (Ermənistan SSR-dən) azərbaycanlıların kütləvi deportasiyası başa çatdırılmışdır. |
| 1990-cı il 20 yanvar | Bakıda sovet ordusu dinc əhaliyə qarşı qanlı qırğın törətmişdir. |
| 1991-ci il 18 oktyabr | Azərbaycan Respublikasının |

| | |
|---|---|
| | Dövlət Müstəqilliyi haqqında Konstitusiya aktı qəbul edilmişdir. |
| 1992-ci il 21 iyun | Azərbaycan BMT-nin Uşaq Hüquqları Konvensiyasına qoşulmuşdur. |
| 1993-cü il 15 iyun | Heydər Əliyev xalqın təkidi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıtmışdır. |
| 1993-cü il 3 oktyabr | Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. |
| 1994-cü il 20 sentyabr | Neft hasilatı ilə bağlı "Əsrin müqaviləsi" imzalanmışdır. |
| 1995-ci il 12 noyabr | Azərbaycan Respublikasının Konstitusiyası qəbul edilmişdir. |
| 1998-ci il 19 may | "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının qanunu qəbul edilmişdir. |
| 2001-ci il 25 yanvar | Azərbaycan Respublikası Avropa Şurasına tamhüquqlu üzv qəbul edilmişdir. |





# TARİXİ GÜNLƏR

| | |
|---|---|
| Ümumxalq hüzn günü | 20 yanvar |
| Gömrük işçiləri günü | 29 yanvar |
| M.Rəsuzladəni anma günü | 31 yanvar |
| Gənclər günü | 2 fevral |
| Azərbaycanın BMT-yə qəbul olunması günü | 2 mart |
| Milli Teatr günü | 10 mart |
| Daxili qoşunlar günü | 12 mart |
| Tarixi abidələrin qorunması günü | 18 mart |
| Beynəlxalq teatr günü | 27 mart |
| Milli Təhlükəsizlik günü | 28 mart |
| Azərbaycanlıların Soyqırımı günü | 31 mart |
| Dünya zarafat günü | 1 aprel |
| H.Əliyevin doğum günü | 10 may |
| Beynəlxalq muzeylər günü | 18 may |
| Məzuniyyət günü - son zəng | 25 may |
| Uşaqları Beynəlxalq Müdafiə günü | 1 iyun |
| Polis işçiləri günü | 5 iyun |
| Silahlı Qüvvələr günü | 26 iyun |

| | |
|---|---|
| Səhiyyə İşçiləri günü | 28 iyun |
| Milli Mətbuat və Jurnalistika günü | 22 iyul |
| Azərbaycan əlifbası və Azərbaycan dili günü | 1 avqust |
| Bilik günü | 1 sentyabr |
| Milli musiqi günü | 17 sentyabr |
| Beynəlxalq ahıllar günü | 1 oktyabr |
| Prokurorluq günü | 1 oktyabr |
| Müəllimlər günü | 5 oktyabr |
| Beynəlxalq Əlillər günü | 3 noyabr |
| Televiziya və Radio İşçiləri günü | 6 noyabr |
| Dünya Azərbaycanlılarının II qurultayı | 9-10 noyabr |
| Ədliyyə işçiləri günü | 23 noyabr |
| Uşaqların Beynəlxalq Televiziya və Radio Verilişləri günü | 11 dekabr |
| Sərhəd qoşunları günü | 16 dekabr |





# BƏZİ TARİXİ GÜNLƏR HAQQINDA

## 20 Yanvar - Bakıda Qanlı Yanvar faciəsi

1990-cı il yanvar ayının 20-də saat 00-da SSRİ Müdafiə Nazirliyinin və Daxili İşlər Nazirliyinin nizami qoşun hissələri Bakıya doğru gedən bütün əsas magistrallar boyu hərəkətə başladılar. Eyni vaxtda da Bakıdakı bütün hərbi obyektlərdən piyadaların müşayiəti ilə zirehli texnika əliyalın, dinc əhalinin üzərinə irəlilədi.

İmperiya yetmiş ildən sonra öz murdar sifətini Azərbaycan xalqına bir də açıb göstərdi.

O gecə Bakı qan içində boğuldu. Azərbaycna 70 il əvvəl olduğu kimi, yenə faciəyə düçar edildi, 171 nəfər adam həlak oldu, 700 nəfər müxtəlif xəsarət aldı və yaralandı, 33 nəfər itkin düşdü.

20 yanvar faciəsi törətməklə M.Qorbaçov başda olmaqla imperiya rəhbərliyi Azərbaycan xalqının milli-azadlıq hərəkatını boğmaq, dağılmaqda olan imperiyanı xilas etmək istəyirdi. Bu misilsiz qanlı təcavüz xalqımıza qarşı Sovet imperiyasının törətmiş olduğu saysız cinayətlərin zirvəsi oldu.

Həmin faciəni unutmaq olmaz! Unutsaq, azadlığımızın, müstəqilliyimizin qədrini bilmərik. Dünyada isə azadlıqdan, müstəqillikdən şirin şey yoxdur!

20 yanvarı təkcə faciə, hüzn günü kimi qiymətləndirmək olmaz. Bu hadisə xalqımızın müstəqillik, azadlıq, demokratiya, ərazi bütövlüyü

uğrunda apardığı mübarizənin təntənəli, bütün dünyanı heyrətdə qoyan mərdlik, igidlik, haqsevərlik uğrunda mübarizəsinin böyük təntənəsi kimi qiymətləndirilməlidir.

## Xocalı faciəsi. 26 fevral 1992-ci il

26 fevral 1992-ci il, Xankəndində yerləşən rus hərbi hissələrinin, xüsusilə 366-cı rus alayının köməyi ilə Ermənistanın hərbi birləşmələri Azərbaycanın Dağlıq Qarabağ ərazisindəki daha bir yaşayış məntəqəsini - Xocalını yerlə yeksan edərək, xarabalığa çevirdi. Bu əsl genosid, əsl soyqırımı idi. Xocalı faciəsi özündən əvvəlki və sonrakı faciələrin heç birinə bənzəmirdi. Bu faciə ermənilərin törətdikləri ən qanlı, ən dəhşətli faciə idi. Bu hadisə yalnız xocalıların məhv edilməsi, fiziki faciəsi yox, bütün türk dünyasının mənəvi tarixi faciəsi oldu. "Xocalı faciəsi"ni törətməklə ermənilər azərbaycanlılara, türklərə qarşı əsrlər boyu davam etmiş amansız nifrətlərini, vəhşiliklərini bütün dünyaya nümayiş etdirdilər. Bu isə dünya ictimaiyyətini qətiyyən narahat etmədi. Sanki heç belə bir hadisə baş verməmişdi. Bu idi özünü ədalətli, demokratik, humanist adlandıran Qərb dünyasının Xocalı faciəsinə münasibəti!

613 nəfər azərbaycanlı qətlə yetirildi. 487 nəfər əlil oldu. 1275 nəfər girov götürüldü. Başlarına olmazın müsibətlər gətirildi. Azğın erməni quldurları Xocalı adlı şəhəri yer üzündən sildilər. İndiyə





kimi itkin düşənlərdən və əsirlərdən 50-sinin ölümü-qalımı barədə heç bir xəbər yoxdur.

## Xocalıların soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı

1992-ci il fevral ayının 26-da Ermənistan silahlı qüvvələri Azərbaycan xalqına qarşı misli görünməmiş Xocalı soyqırımını törətmişlər. Bu kütləvi və amansız qırğın aktı, erməni qəsbkarlarının Azərbaycanın dövlət müstəqilliyini, ərazi bütövlüyünü hədəfə almış məqsədyönlü irticaçı siyasətinin növbəti qanlı səhifəsi olmaqla, təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa qarşı cinayətdir və bəşər tarixində qara ləkə kimi qalacaqdır.

Xocalı soyqırımı qurbanlarının xatirəsini yad etmək məqsədi ilə qərara alıram:

Hər il fevral ayının 26-sı saat 17.00-da Azərbaycan Respublikasının ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq sükut dəqiqəsi elan edilsin.

*Heydər Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 25 fevral 1997-ci il*

**26 iyun - Azərbaycan Respublikası Silahlı Qüvvələr günü**

Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə Azərbaycan Respublikası Silahlı Qüvvələr günü kimi qeyd edilir. (Azərbaycan Xalq Cümhuriyyəti dövründə ilk dəfə olaraq 1918-ci il iyunun 26-da Müsəlman korpusu "Əlahiddə Azərbaycan korpusu" adlandırıldı). Həmin tarixi varislik əsas götürülmüş və həmin gün ölkəmizdə ümummilli bayram günü elan edilmişdir.

**20 noyabr - Azərbaycan xalqı onların əziz xatirəsini həmişə qəlbində yaşadacaq**

Ermənistanın törətdiyi elan olunmamış müharibə Azərbaycanın müsibətlər çəkən torpağında öz qanlı əməllərini davam etdirir. 1991-ci il noyabrın 20-də DQMV-nin Martuni rayonunun Qarakənd kəndi yaxınlığında dəhşətli facia baş vermiş, erməni quldurları tərəfindən hərbi vertolyot vurulmuşdur. Vertolyotda respublikanın görkəmli dövlət və siyasi xadimləri, hüquq mühafizə orqanlarının rəhbərləri, SSRİ xalq deputatları, SSRİ Daxili İşlər Nazirliyinin və Müdafiə Nazirliyinin nümayəndələri, Dağlıq Qarabağda münaqişənin dinc yolla aradan qaldırılmasına dair Jeleznovodsk sazişlərinin həyata keçirilməsinə kömək etmək üçün gəlmiş RSFSR və Qazaxıstan müşahidəçiləri, jurnalistlər, mülki peşə sahibləri və hərbi qulluqçular olmuşlar. Bütün sərnişinlər və





heyət üzvləri həlak olmuşlar. Onlar aşağıdakılardır:

| | |
|---|---|
| 1. **Tofiq İsmayılov** | SSRİ Baş Kosmik İdarəsinin Kosmik Tədqiqatlar Elm İstehsal Birliyinin direktoru, akademik |
| 2. **İsmət Qayıbov** | Azərbaycan Respublikasının Baş Prokuroru |
| 3. **Alı Mustafayev** | jurnalist |
| 4. **Osman Mirzəyev** | Prezident aparatı yanında kütləvi informasiya şöbəsinin müdiri |
| 5. **Zülfü Hacıyev** | Baş Nazirin müavini |
| 6. **Məhəmməd Əsədov** | Daxili İşlər Naziri |
| 7. **Vəli Məmmədov** | Bakı şəhəri partiya təşkilatının katibi |
| 8. **Vaqif Cəfərov** | Şuşa rayon Xalq Deputatları Sovetinin sədri |

9. **Rafiq Məmmədov** hüquqşünas

10. **Qurban Namazəliyev** Nazir müavini

11. **Arif Hüseynzadə** televiziya işçisi

12. **Fəxrəddin Şahbazov** operator

13. **Sergey İvanov** Dövlət Təhlükəsizliyi orqanının işçisi

14. **İqor Plavski** prokuror

15. **S.Serikov, O.Koçerov, V.Kovalyov, N.Jinkin** Dövlət Təhlükəsizliyi komitəsinin əməkdaşları

16. **V.Kotov, K.Domov, D.Yarovenko** vertolyot heyətinin üzvləri

Qarakənd faciəsi bir daha göstərdi ki, ermənilər və onların havadarları Azərbaycan xalqının məhv edilməsi, onun torpaqlarının işğal edilməsinə dair məkrli planlarını həyata keçirmək üçün ən iyrənc vasitələrdən və üsullardan belə çəkinməmişlər.





## TƏHSİL MÜƏSSİSƏLƏRİMİZ

| | ☎ |
|---|---|
| ✓ «Qafqaz» İbtidai məktəbi | 66 42 05 |
| ✓ Bakı Özəl Türk Liseyi | 90 61 18 |
| ✓ Bakı Özəl «Dədə Qorqud» Liseyi | 73 87 97 |
| ✓ Gəncə Özəl Türk Liseyi | (225) 7 55 47 |
| ✓ Sumqayıt Özəl Türk Liseyi | (164) 5 41 64 |
| ✓ Mingəçevir Özəl Türk Liseyi | (147) 4 14 88 |
| ✓ Ağdaş Özəl Türk Liseyi | (193) 5 36 66 |
| ✓ Quba Özəl Türk Liseyi | (169) 5 21 35 |
| ✓ Əli Bayramlı Özəl Türk Liseyi | (197) 4 48 22 |
| ✓ Lənkəran Özəl Türk Liseyi | (171) 4 09 29 |
| ✓ Şəki Özəl Türk Liseyi | (177) 6 00 02 |
| ✓ «ARAZ» Hazırlıq Kursları | 31 02 73 |
| ✓ «Qafqaz» Universiteti | 38 72 46 |

## SORAQ KİTABINDA İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı 1996
2. Azərbaycan Respublikasının dövlət rəmzləri, Bakı, "Çaşoğlu" nəşriyyatı, 2001, M.C. Mərdanov, Ə.Q. Quliyev
3. Azərbaycan tarixi, Bakı,"Elm" nəşriyyatı, 1993
4. ASE, Bakı Azərnəşr, 1981
5. Azərbaycan Respublikası Təhsil Nazirliyinin orta ümumtəhsil məktəbləri üçün hazırladığı gündəlik



Kitabça "Çağ" Öyrətim İşlətmələri MMM Azərbaycan-Türkiyə Özəl Liseyləri Baş idarəsinin kompüter mərkəzində yığılmışdır.



Web: **www.cag.edu.az**
Tel: 90 84 10, 90 84 11. Faks: 90 63 45
famil2000@yahoo.com